

İLLİK TURİZM STATİSTİKASI

# 2021

ANNUAL TOURISM STATISTICS

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi

azərbaycan TURİZM BÜROSU



# Mündəricat

Gəlmə sayı ..... 5
Mehmanxanalar və mehmanxana tipli müəssisələr ..... 9
Daxili turizm ..... 19
Abreviaturalar ..... 24
Təriflər ..... 25

# Contents

Arrivals ..... 5
Hotels and similar establishments ..... 9
Domestic tourism ..... 19
Abbreviations ..... 24
Definitions ..... 25



# Gəlmə sayı

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2021-ci ildə ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı ümumilikdə 792 min nəfər təşkil etmişdir. 2021-ci ildə sərhəd keçid məntəqələrində pandemiya məhdudiyyətlərinin davam etməsi Azərbaycana gələn əcnəbi vətəndaşların sayına əhəmiyyətli dərəcədə təsir göstərməyə davam etmiş, bu isə öz növbəsində, qonşu ölkələrin gəlmə sayındakı payının artması ilə nəticələnmişdir. Cədvəl 1-də də göstərildiyi kimi, ən çox əcnəbinin gəldiyi ilk 15 ölkə arasında qonşu ölkələrin payı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gələn əcnəbi vətəndaşların sayına görə Rusiya ilk pillədə qərarlaşmışdır ki (258,3 min), onu müvafiq olaraq Türkiyə (197,9 min), İran (125,3 min) və Gürcüstan (62,6 min) izləmişdir.

# Number of Arrivals

According to State Border Service, in 2021, the number of arrivals totalled 792 thousand foreign citizens. Due to the ongoing pandemic restrictions on the border passes in 2021, international tourism flows were also substantially affected, which resulted in the increasing share of neighbor countries on total international arrivals. As illustrated in Table 1, among the top 15 inbound tourism source markets, the largest share of arrivals is observed for neighboring countries. Russia (258.3 thousand) held the lead in terms of international arrivals to Azerbaijan, followed by Türkiye (197.9 thousand), Iran (125.3 thousand), and Georgia (62.6 thousand).

**Cədvəl 1: Ölkəyə gələn xarici vətəndaşların sayı (2021-2020-2019)**
Table 1: Total arrivals (2021-2020-2019) from the top 15 countries

| **Ölkələr** Countries | **Cəmi, nəfər** Total arrivals **2021** | **Cəmi, nəfər** Total arrivals **2020** | **Cəmi, nəfər** Total arrivals **2019** | **% dəyişməsi** % change **2021-2020** | **% dəyişməsi** % change **2021-2019** |
|---|---|---|---|---|---|
| **Rusiya Federasiyası** Russian Federation | 258,315 | 225,201 | 932,984 | 15% ▲ | -72% ▼ |
| **Türkiyə** Türkiye | 197,907 | 160,504 | 316,628 | 23% ▲ | -38% ▼ |
| **İran** Iran | 125,358 | 72,783 | 255,628 | 72% ▲ | -51% ▼ |
| **Gürcüstan** Georgia | 62,666 | 184,228 | 725,465 | -66% ▼ | -91% ▼ |
| **Ukrayna** Ukraine | 17,428 | 16,953 | 59,116 | 3% ▲ | -71% ▼ |
| **BƏƏ** UAE | 17,320 | 7,951 | 68,346 | 117% ▲ | -75% ▼ |
| **Birləşmiş Krallıq** United Kingdom | 9,428 | 7,051 | 36,914 | 33% ▲ | -75% ▼ |
| **Səudiyyə Ərəbistanı** Saudi Arabia | 8,834 | 11,945 | 107,230 | -26% ▼ | -92% ▼ |
| **Qazaxıstan** Kazakhstan | 6,928 | 8,498 | 47,551 | -19% ▼ | -85% ▼ |
| **İsrail** Israel | 6,655 | 4,238 | 47,056 | 57% ▲ | -86% ▼ |
| **Almaniya** Germany | 5,922 | 3,531 | 20,509 | 68% ▲ | -71% ▼ |
| **Belarus** Belarus | 5,730 | 6,036 | 14,844 | -5% ▼ | -61% ▼ |
| **Hindistan** India | 5,705 | 12,769 | 65,118 | -55% ▼ | -91% ▼ |
| **ABŞ** United States of America | 4,409 | 2,604 | 18,787 | 69% ▲ | -77% ▼ |
| **Özbəkistan** Uzbekistan | 4,213 | 5,283 | 23,507 | -20% ▼ | -82% ▼ |
| **Cəmi** Total | 791,751 | 795,722 | 3,170,373 | -1% ▼ | -75% ▼ |

**Mənbə:** Dövlət Sərhəd Xidməti; Dövlət Statistika Komitəsi / **Source:** State Border Service; State Statistical Committee

2021-ci ildə ölkəyə gələn əcnəbi vətəndaşların 84%-i ümumilikdə ilk 5 ölkənin (Rusiya, Türkiyə, İran, Gürcüstan və Ukrayna) payına düşür ki, qeyd edilən ölkələr arasında 2020-ci illə müqayisədə Gürcüstan istisna olmaqla, demək olar ki, bütün ölkələrin gəlmə sayında artım müşahidə edilmişdir. 2020-ci ildə olduğu kimi, Rusiya gəlmə sayına görə liderliyini qorusa da, ikinci pillədə qərarlaşan Gürcüstan mövqeyini Türkiyə və İrana itirərək dördüncü pilləyə qədər geriləyib. Ölkələr üzrə ən yüksək artım tempinin qeydə alındığı İrandan gələnlərin sayı 2020-ci illə müqayisədə 72% artsa da, 2019-cu il üzrə göstəricilərdən 51% geridə qalmışdır. Anoloji olaraq, Rusiya, Türkiyə və Ukraynadan gələnlərin sayında 2020-ci illə müqayisədə müvafiq olaraq 15%, 23% və 3% artım, 2019-cu illə müqayisədə isə 72%, 38% və 71% azalma müşahide edilmişdir.

The top 5 countries (Russia, Türkiye, Iran, Georgia, and Ukraine) with the highest number of arrivals in 2021, together holding 84% of total arrivals and almost all these countries, except Georgia, showed an increase in terms of arrivals. Russia held first place among the top source markets, while the position of Georgia deteriorated to fourth place standing after Türkiye and Iran. Iran recorded the highest growth rate (72%) in terms of arrivals compared to 2020 which brought it to third place, though it remained 51% lower than 2019 levels. Although international arrivals from Russia, Türkiye, and Ukraine increased by 15%, 23%, and 3%, over 2020, they remained 72%, 38%, and 71% below 2019 results respectively.

**Şəkil 1: Ən çox əcnəbinin gəldiyi 5 ölkə (min nəfər), (2021-2020-2019)**
Figure 1: Arrivals from the top 5 countries (in thousands) (2021-2020-2019)




**Mənbə:** Dövlət Sərhəd Xidməti / **Source:** State Border Service

Statistika ilk 5 ölkədən gələnlərdən fərqli olaraq, əvvəlki illərdə gəlmə sayında əhəmiyyətli paya malik Səudiyyə Ərəbistanı, Qazaxıstan, Belarus, Hindistan və Özbəkistandan gələnlərin sayında azalma tempinin davam etdiyini və bunun nəticəsi olaraq, ilk 15 ölkənin ümumi nəticələrinin əvvəlki illərdən geri qaldığını göstərir. Qeyd edilməlidir ki, bu ölkələrdən gələnlərin sayında 2020-ci illə müqayisədə müvafiq olaraq 26%, 19%, 5%, 55% və 20% azalma müşahidə edilmişdir ki, bu da ölkələrin əvvəlki illərə nisbətən öz mövqelərini itirməsi ilə nəticələnmişdir. Digər tərəfdən, ən çox əcnəbi gələn ölkələr arasında BƏƏ (+4 pillə), Böyük Britaniya (+4 pillə) və İsrail (+7 pillə) 2020-ci illə müqayisədə öz mövqelərini yaxşılaşdırmışdır. Həmçinin onu da qeyd etmək lazımdır ki, 2021-ci ildə sözügedən ölkələrdən gələnlərin təxminən 70%-i avqust-dekabr aylarında səyahət məhdudiyyətlərinin aradan qaldırılmasından sonra ölkəyə səfər etmişdirlər.

Apart from the top 5 countries, statistical results show that recovery in the top 15 source markets is delayed as the downtrend continued in the international arrivals from Saudi Arabia, Kazakhstan, Belarus, India, and Uzbekistan. The ranking of these countries deteriorated, since the number of arrivals decreased by 26%, 19%, 5%, 55%, and 20% respectively, compared to 2020. On the other hand, UAE (+4 places), United Kingdom (+4 places), and Israel (+7 places) were among the countries whose ranking increased in the top 15 source markets compared with 2020 data. It is also important to note that almost 70% of travellers from these three markets travelled to Azerbaijan in the August-December period, after the restrictions on traveling to Azerbaijan have been softened.

## Şəkil 2: Növbəti 5 ölkə (min nəfər), 2021-2020-2019
Figure 2: Next 5 countries (in thousands) 2021-2020-2019




**Mənbə:** Dövlət Sərhəd Xidməti / **Source:** State Border Service

Şəkil 3-də göstərildiyi kimi, birinci rüb istisna olmaqla, 2021-ci ilin digər aylarında gələnlərin sayı əvvəlki ilin eyni aylarına nisbətən artım göstərmişdir. Məlumat üçün qeyd edilməlidir ki, 2021-ci ildə gələnlərin sayında ən yüksək artım ilin son rübündə (xüsusilə oktyabr və dekabr aylarında) qeydə alınıb. Aylıq göstəricilər üzrə isə iyul ayı ən yüksək artım tempinin müşahidə olunduğu ay olmuşdur ki, müvafiq dövrdə ziyarətçilərin sayı əvvəlki ilə nisbətən təxminən 3 dəfə artmışdır. Ümumi nəticə onu deməyə əsas verir ki, 2021-ci ilin aprel ayından etibarən gələnlərin sayında müəyyən artım müşahidə edilsə də, ölkəyə gələnlərin sayı həm 2020-ci ilin, həm də pandemiyadan əvvəlki dövrün nəticələrindən əhəmiyyətli dərəcədə aşağıdır.

As described in Figure 3, except the first quarter, the number of arrivals for each month of 2021 shows percent increase, in comparison with the previous year. In 2021, the highest number of arrivals was recorded at the last quarter of the year (particularly in October and December). According to a monthly comparison, July experienced the highest percent increase where the number of visitors tripled comparing to the previous year. Although the number of arrivals slightly improved since April 2021, the volume of international tourists was much lower than 2020 and pre-pandemic levels.

## Şəkil 3: Ölkəyə gələn əcnəbi vətəndaşların aylar üzrə sayı
Figure 3: Total arrivals, monthly breakdown




**Mənbə:** Dövlət Sərhəd Xidməti / **Source:** State Border Service

# Mehmanxanalar və mehmanxana tipli müəssisələr

*Hotels and similar establishments*



2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayında nəzərə çarpan artım müşahidə olunmayıb. Belə ki, ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin, otaqların və çarpayı yerlərinin sayı 2021-ci ildə cəmi 5% artmışdır. Cədvəl 2 ən çox mehmanxana və mehmanxana tipli müəssisə, otaq və çarpayı yerləri olan şəhərlərin siyahısını göstərir. 2021-ci ildə Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2020-ci illə müqayisədə 5% artaraq 685 müəssisə təşkil etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədə yerləşən mehmanxana və mehmanxana tipli müəssisələrin 33%-i Bakıda yerləşir. 2020-ci illə müqayisədə Bakıdakı mehmanxana və mehmanxana tipli müəssisələrin sayında 7% artım qeydə alınıb. Regionlarda ən çox mehmanxana və mehmanxana tipli müəssisə Xaçmaz (56), Masallı (31), Quba (26) və Lənkəranda (25) yerləşir.

Ölkədəki mehmanxana və mehmanxana tipli müəssisələrin sayı ilə yanaşı, otaq və yataq yerlərinin də sayının böyük hissəsi Bakıya məxsusdur. Qeyd edilən göstəricilər müvafiq olaraq 47% və 41% faiz təşkil edir. Qeyd edilməlidir ki, Gəncə, Lənkəran və İsmayıllı şəhərlərindən başqa digər şəhərlərdə mehmanxanaların, otaqların və çarpayı yerlərinin sayında 2020-ci il illə müqayisədə artım müşahidə edilməyib.

The number of hotels and similar establishments did not experience a noteworthy change in 2021. Compared to 2020, the number of hotels and similar establishments, rooms and bed places increased by only 5% each. Table 2 illustrates a list of cities with the highest number of hotels and similar establishments, rooms and bed places. In 2021, the number of hotels in Azerbaijan reached 685 establishments as a result of 5% increase, compared to 2020. According to State Statistical Committee, 33% of overall hotels and similar establishments is located in Baku, showing 7% increase since 2020. Among other cities, Khachmaz (56), Masalli (31), Guba (26) and Lankaran (25) are among top 5 cities with the highest number of hotels and similar establishments.

Along a number of hotels and similar establishments, Baku obtains the highest share of number of rooms and bed places, nearly 47% and 41% of total respectively. Comparing with 2020, most of the cities do not experience any change in terms of the number of hotels and similar establishments, rooms or bed places, except Ganja, Lankaran and Ismayilli.

**Cədvəl 2: Yerləşdirmə müəssisələri, otaq və çarpayı yerlərinin sayı (2021)**
Table 2: Number of accommodation establishments, rooms and bed places (2021)

| **Şəhər** City | **Müəssisələrin sayı** Number of establishments **2021** | **% dəyişməsi** % change **2021-2020** | **Otaqların sayı** Number of rooms **2021** | **% dəyişməsi** % change **2021-2020** | **Çarpayı yerlərinin sayı** Number of bed places **2021** | **% dəyişməsi** % change **2021-2020** |
|---|---|---|---|---|---|---|
| **Bakı** Baku | 227 | 7% | 11,985 | 4% | 21,885 | 3% |
| **Xaçmaz** Khachmaz | 56 | 4% | 2419 | 1% | 6,536 | 1% |
| **Masallı** Masalli | 31 | 0% | 453 | 0% | 1,148 | 0% |
| **Quba** Guba | 26 | 0% | 750 | 0% | 1,778 | 0% |
| **Lənkəran** Lankaran | 25 | 9% | 664 | 4% | 1429 | 6% |
| **Şamaxı** Shamakhi | 23 | 0% | 366 | 0% | 841 | 0% |
| **İsmayıllı** Ismayilli | 22 | 5% | 556 | 49% | 1,312 | 44% |
| **Naxçıvan** Nakhchivan | 21 | 0% | 657 | 0% | 1,517 | 0% |
| **Qəbələ** Gabala | 19 | 6% | 1157 | 3% | 2,725 | 4% |
| **Qusar** Gusar | 18 | 0% | 991 | 0% | 2289 | 0% |
| **Şəki** Sheki | 17 | 0% | 283 | 0% | 582 | 0% |
| **Gəncə** Ganja | 15 | 25% | 949 | 38% | 1862 | 34% |
| **Sumqayıt** Sumgayit | 14 | 0% | 256 | 0% | 487 | 0% |
| **Zaqatala** Zagatala | 13 | 0% | 178 | 0% | 395 | 0% |
| **Qax** Gakh | 12 | 0% | 292 | 0% | 746 | 0% |
| **Ölkə üzrə yekun** Country total | 685 | 5% | 25,445 | 5% | 53,049 | 5% |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslərin sayı 1 milyona yaxın olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 75% artım deməkdir. Onu da qeyd etmək lazımdır ki, bu nəticə 2019-cu illə müqayisədə 65% daha aşağıdır.

Mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilən şəxslərin ümumi sayında Azərbaycan vətəndaşlarının payı 77%-ə yüksəlmişdir. Buna səbəb olaraq beynəlxalq səyahət məhdudiyyətlərini, uçuş qiymətlərinin artmasını və əcnəbi turistlərin sağlamlıqla bağlı risklərini göstərmək olar.

2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələyən əcnəbilərin 84%-i Bakıda qeydə alınıb. Bu göstərici üzrə ikinci sırada dayanan Qəbələ şəhərinin hotellərində gecələyən əcnəbi vətəndaşlar ölkədə gecələyən bütün əcnəbilərin 5%-ni təşkil edir. Azərbaycan vətəndaşları əsasən Bakı (46%), Qəbələ (8%) və Quba (7%) kimi şəhərlərdə gecələmə məqsədilə mehmanxana və mehmaxana tipli müəssisələrdən istifadə ediblər.

In 2021, the total number of accommodated people in hotels and similar establishments reached 1 million people, showing 75% increase compared to the previous year. Note that this result is 65% less than the number of accommodated people in 2019.

The share of Azerbaijani citizens, in terms of the number of accommodated people, has increased to 77%. This may be due to several factors, such as international travel restrictions, increased flight ticket prices and health concerns by foreign tourists regarding international travel.

Baku held 84% of total number of accommodated foreigners. This is followed by Gabala, which is about 5% of total foreign accommodated people. Azerbaijani citizens mainly used hotels and similar establishments for accommodation in Baku (46%), Gabala (8%) and Guba (7%).

**Cədvəl 3: Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələyən şəxslərin sayı (2021-2020)**
Table 3: Number of people accommodated in hotels and similar establishments 2021-2020

| **Şəhər** City | **Cəmi** Total | | **Azərbaycan vətəndaşları** Azerbaijani citizens | | **Əcnəbi vətəndaşlar** Foreign citizens | |
|---|---|---|---|---|---|---|
| | **Cəmi** Total | **% dəyişməsi** %change **2021-2020** | **Yekun pay** Share of total | **% dəyişməsi** %change **2021-2020** | **Yekun pay** Share of total | **% dəyişməsi** %change **2021-2020** |
| **Bakı** Baku | 639,978 | 61% | 64% | 133% | 36% | 29% |
| **Qəbələ** Gabala | 83,534 | 44% | 85% | 45% | 15% | 38% |
| **Quba** Guba | 68,072 | 159% | 91% | 182% | 9% | 43% |
| **Şabran** Shabran | 57,045 | 223% | 93% | 217% | 7% | 362% |
| **Lənkəran** Lankaran | 49,949 | 81% | 98% | 80% | 2% | 210% |
| **Qusar** Gusar | 40,573 | 13% | 83% | -6% | 17% | -61% |
| **Naxçıvan** Nakhchivan | 38,459 | 136% | 82% | 375% | 18% | -30% |
| **Şamaxı** Shamakhi | 27,525 | 229% | 96% | 229% | 4% | 230% |
| **Xaçmaz** Khachmaz | 20,678 | 381% | 100% | 390% | 0% | -12% |
| **Naftalan** Naftalan | 18,606 | 104% | 82% | 155% | 18% | 7% |
| **Masallı** Masalli | 14,578 | 267% | 100% | 268% | 0% | -100% |
| **Gəncə** Ganja | 13,352 | 118% | 95% | 127% | 5% | 26% |
| **Qax** Gakh | 12,900 | 134% | 100% | 137% | 0% | -81% |
| **Mingəçevir** Mingachevir | 11,645 | 88% | 100% | 95% | 0% | -77% |
| **Zaqatala** Zagatala | 8,851 | 58% | 99% | 60% | 1% | -18% |
| **Ölkə üzrə yekun** Country total | 1,172,123 | 75% | 77% | 124% | 23% | 2% |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

**Cədvəl 4: Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələyən şəxslərin sayı (2021-2019)**
Table 4: Number of people accommodated in hotels and similar establishments 2021-2019

| **Şəhər** City | **Yekun** Total | | **Azərbaycan vətəndaşları** Azerbaijani citizens | **Əcnəbi vətəndaşlar** Foreign citizens |
|---|---|---|---|---|
| | **Cəmi** Total **2021** | **% dəyişməsi** %change **2021-2019** | **% dəyişməsi** %change **2021-2019** | **% dəyişməsi** %change **2021-2019** |
| **Bakı** Baku | **639,978** | **-47%** | **168%** | **-78%** |
| **Qəbələ** Gabala | **83,534** | **-55%** | **8%** | **-89%** |
| **Quba** Guba | **68,072** | **2%** | **91%** | **-83%** |
| **Şabran** Shabran | **57,045** | **89%** | **90%** | **76%** |
| **Lənkəran** Lankaran | **49,949** | **40%** | **45%** | **-52%** |
| **Qusar** Gusar | **40,573** | **-41%** | **-19%** | **-74%** |
| **Naxçıvan** Nakhchivan | **38,459** | **-40%** | **74%** | **-85%** |
| **Şamaxı** Shamakhi | **27,525** | **27%** | **41%** | **-65%** |
| **Xaçmaz** Khachmaz | **20,678** | **-27%** | **-25%** | **-85%** |
| **Naftalan** Naftalan | **18,606** | **-48%** | **-27%** | **-78%** |
| **Masallı** Masalli | **14,578** | **14%** | **14%** | **-100%** |
| **Gəncə** Ganja | **13,352** | **-12%** | **23%** | **-86%** |
| **Qax** Gakh | **12,900** | **-44%** | **-40%** | **-99%** |
| **Mingəçevir** Mingachevir | **11,645** | **-32%** | **-29%** | **-92%** |
| **Zaqatala** Zagatala | **8,851** | **10%** | **20%** | **-89%** |
| **Ölkə üzrə yekun** Country total | **1,172,123** | **-39%** | **49%** | **-79%** |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələyən Rusiya, Səudiyyə Ərəbistanı və Hindistan vətəndaşlarının sayında 2020-ci illə müqayisədə müvafiq olaraq 15%, 64% və 64% azalma qeydə alınıb. Bundan əlavə, Türkiyə (+68%), Almaniya (+50%), İtaliya (+29%), ABŞ (+14%), İsrail (+10%), BƏƏ (+5%) və Birləşmiş Krallıqdan (+5%) gələnlər arasında hotellərdə yerləşdirilənlərin sayı artıb.

The number of accommodated foreigners decreased by 32% and 79% compared to 2020 and 2019 respectively. Among them, Russia, Saudi Arabia and India showed a percent decrease compared to 2020, nearly 15%, 64% and 64% respectively. Moreover, the number of accommodated people increased among visitors from Türkiye (+68%), Germany (+50%), Italy (+29%), USA (+14%), Israel (+10%), UAE (+5%) and United Kingdom (+5%).

**Şəkil 4: Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələyən əcnəbi şəxslərin sayı, min nəfər (2021, 2020, 2019)**

Figure 4: Number of accommodated foreigners in hotels and similar establishments, in thousands (2021, 2020, 2019)




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmə sayı üzrə ən yüksək nəticəyə malik 15 şəhərin göstəriciləri 2020 və 2019-cu illərlə müqayisəli şəkildə müvafiq olaraq Cədvəl 5 və 6-da öz əksini tapmışdır. Gecələmələrin 77%-i yerli turistlər üçün qeydə alınıb. Qeyd olunan şəhərlər arasında Bakı, Qəbələ, Xaçmaz və Şabran 2021-ci ildə turistlərin mehmanxana və mehmanxana tipli müəssisələrdə ən çox gecələdikləri yerlər olub. Belə ki, il üzrə mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmə sayının 75%-i bu şəhərlərin payına düşür: Bakı (49%), Qəbələ (8%), Xaçmaz (7%), Quba və Şabran (hər biri 6%). Bakıdan başqa digər bütün şəhərlərdə yerli turistlər hotellərdə gecələmənin böyük hissəsini təşkil etmişdir.

The results of top 15 cities for the number of overnight stays in hotels and similar establishments in 2021, with comparison to 2020 and 2019, are reflected in Tables 5 and 6, respectively. 77% of overnights was recorded for local tourists. Among these cities, Baku, Gabala, Khachmaz, and Shabran were the main destinations in terms of overnight visitors at hotels and similar establishments in 2021. These cities took about 75% of total number of overnights during the year: Baku (49%), Gabala (8%), Khachmaz (7%), Guba and Shabran (6% each). Except Baku, local tourists captured a higher portion of total overnights at hotels and similar establishments.

## Cədvəl 5: Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmə sayı, 2021-2020
Table 5: Number of overnight stays in hotels and similar establishments, 2021-2020

| Şəhər City | Cəmi Total | | Azərbaycan vətəndaşları Azerbaijani citizens | | Əcnəbi vətəndaşlar Foreign citizens | |
|---|---|---|---|---|---|---|
| | Cəmi Total 2021 | % dəyişməsi %change 2021-2020 | Yekun pay Share of total | % dəyişməsi %change 2021-2020 | Yekun pay Share of total | % dəyişməsi %change 2021-2020 |
| **Bakı** Baku | **870,503** | **50%** | **61%** | **109%** | **39%** | **3%** |
| **Qəbələ** Gabala | **141,580** | **46%** | **81%** | **48%** | **19%** | **38%** |
| **Xaçmaz** Khachmaz | **119,368** | **1163%** | **100%** | **1197%** | **0%** | **-47%** |
| **Quba** Guba | **106,209** | **156%** | **90%** | **190%** | **10%** | **25%** |
| **Şabran** Shabran | **103,588** | **438%** | **94%** | **427%** | **6%** | **686%** |
| **Lənkəran** Lankaran | **74,430** | **134%** | **99%** | **133%** | **1%** | **261%** |
| **Qusar** Gusar | **69,544** | **27%** | **82%** | **96%** | **18%** | **-52%** |
| **Naftalan** Naftalan | **47,872** | **56%** | **84%** | **165%** | **16%** | **-50%** |
| **Naxçıvan** Nakhchivan | **39,878** | **67%** | **83%** | **236%** | **17%** | **-51%** |
| **Şamaxı** Shamakhi | **29,131** | **240%** | **96%** | **240%** | **4%** | **238%** |
| **Qax** Gakh | **26,736** | **202%** | **100%** | **209%** | **0%** | **-93%** |
| **Masallı** Masalli | **19,520** | **171%** | **100%** | **171%** | **0%** | **-100%** |
| **Mingəçevir** Mingachevir | **17,428** | **41%** | **94%** | **73%** | **6%** | **-64%** |
| **Gəncə** Ganja | **14,243** | **68%** | **95%** | **94%** | **5%** | **-51%** |
| **Zaqatala** Zagatala | **10,233** | **54%** | **99%** | **55%** | **1%** | **-13%** |
| **Ölkə üzrə yekun** Country total | **1,788,716** | **79%** | **77%** | **136%** | **23%** | **-1%** |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

**Cədvəl 6: Mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmə sayı, 2021-2019**
Table 6: Number of overnight stays in hotels and similar establishments, 2021-2019

| **Şəhər** City | **Yekun** Total | | **Azərbaycan vətəndaşları** Azerbaijani citizens | **Əcnəbi vətəndaşlar** Foreign citizens |
|---|---|---|---|---|
| | **Cəmi** Total **2021** | **% dəyişməsi** %change **2021-2019** | **% dəyişməsi** %change **2021-2019** | **% dəyişməsi** %change **2021-2019** |
| **Bakı** Baku | **870,503** | **-55%** | **159%** | **-81%** |
| **Qəbələ** Gabala | **141,580** | **-53%** | **18%** | **-87%** |
| **Xaçmaz** Khachmaz | **119,368** | **-19%** | **-19%** | **-92%** |
| **Quba** Guba | **106,209** | **-60%** | **-49%** | **-86%** |
| **Şabran** Shabran | **103,588** | **243%** | **247%** | **195%** |
| **Lənkəran** Lankaran | **74,430** | **87%** | **94%** | **-53%** |
| **Qusar** Gusar | **69,544** | **-26%** | **1%** | **-68%** |
| **Naftalan** Naftalan | **47,872** | **-61%** | **-30%** | **-88%** |
| **Naxçıvan** Nakhchivan | **39,878** | **-56%** | **34%** | **-90%** |
| **Şamaxı** Shamakhi | **29,131** | **21%** | **35%** | **-68%** |
| **Qax** Gakh | **26,736** | **-21%** | **-13%** | **-100%** |
| **Masallı** Masalli | **19,520** | **-15%** | **-15%** | **-100%** |
| **Mingəçevir** Mingachevir | **17,428** | **-47%** | **-13%** | **-93%** |
| **Gəncə** Ganja | **14,243** | **-49%** | **1%** | **-95%** |
| **Zaqatala** Zagatala | **10,233** | **7%** | **16%** | **-89%** |
| **Ölkə üzrə yekun** Country total | **1,788,716** | **-47%** | **24%** | **-82%** |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

**Cədvəl 7: Mehmanxana və mehmanxana tipli müəssisələrin əldə etdiyi gəlir, min AZN**
Table 7: Revenues of hotels and similar establishments, in thousands of AZN

| **Şəhər**<br>City | **2021** | **% dəyişməsi**<br>% change<br>**2021-2020** | **% dəyişməsi**<br>% change<br>**2021-2019** |
|---|---|---|---|
| **Bakı**<br>Baku | 128,542.7 | 69% | -62% |
| **Qəbələ**<br>Gabala | 17,888.5 | 83% | -42% |
| **Quba**<br>Guba | 9,492.4 | 171% | -25% |
| **Qusar**<br>Gusar | 8,778.4 | -1% | -39% |
| **Lənkəran**<br>Lankaran | 7,800.3 | 180% | 83% |
| **Şabran**<br>Shabran | 6,006 | 202% | 64% |
| **Şamaxı**<br>Shamakhi | 5,650 | 141% | 0% |
| **Xaçmaz**<br>Xachmaz | 5,614.2 | 1049% | -13% |
| **Naftalan**<br>Naftalan | 5,145.8 | 78% | -59% |
| **Naxçıvan**<br>Nakhchivan | 2,411.1 | 38% | -64% |
| **Sumqayıt**<br>Sumgayit | 1,627.9 | 150% | -9% |
| **Qax**<br>Gakh | 1,547.5 | 281% | 23% |
| **Masallı**<br>Masalli | 1,283.7 | 324% | 62% |
| **Gəncə**<br>Ganja | 1,029.5 | 44% | -57% |
| **Mingəçevir**<br>Mingachevir | 1,009.7 | 22% | -50% |
| **Ölkə üzrə yekun**<br>Country total | 209,687.3 | 80% | -53% |

**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

**Şəkil 5: Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirlərinin şəhərlər üzrə payı, 2021**
Figure 5: Share of total revenue of hotels and similar establishments per city, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Dövlət Statistika Komitəsinin məlumatına görə 2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin əldə etdiyi gəlir əvvəlki illə müqayisədə 80% artaraq 210 milyon manat təşkil edib. Qusar istisna olmaqla, regionlarda yerləşən bütün mehmanxana və mehmanxana tipli müəassisələrin gəlirlərində artım müşahidə olunub.

Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirlərinin 61%-i Bakı şəhərinin payına düşür. Növbəti ən böyük pay Qəbələ (9%) və Quba (4%) şəhərlərinə məxsusdur.

Ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri ən çox otaq satışı və iaşə xidmətlərindən müvafiq olaraq 60% və 29% əldə olunub. Bu bölgü şəhərlər üzrə baxdıqda da oxşar nəticələri əks etdirir. Naftalan və Lənkəran şəhərlərində yerləşən mehmanxana və mehmanxana tipli müəssisələr gəlirlərinin əksər hissəsini iaşə xidmətlərindən əldə edir.

According to State Statistical Committee, total revenues of hotels and similar establishments in Azerbaijan for 2021 showed 80% increase compared to the previous year, totaling 210 million AZN. Except Gusar, hotels and similar establishments located in all regions showed increase in revenues.

Baku holds about 61% of total revenue of hotels and similar establishments, followed by Gabala (9%) and Guba (4%).

Main elements of hotels and similar establishments' revenues in a country were room reservations and restaurants, 60% and 29% of total revenue respectively. This trend is mostly experienced per city breakdown results. Hotels and similar establishments in Naftalan and Lankaran earn mostly from services at restaurants.

**Şəkil 6: Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirlərinin strukturu, şəhərlər üzrə**
Figure 6: Revenue structure of hotels and similar establishments, city breakdown




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee



# Daxili turizm

# Domestic Tourism

Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədaxili səfər etmiş yerli turistlərin sayı əvvəlki illə müqayisədə 167% artaraq 3.4 milyona çatmışdır. Ölkədaxili həyata keçirilən səfərlərin sayı isə 2020-ci illə müqayisədə 152% artmışdır. Ziyarətçilərin məqsədə görə bölgüsü keçən illə oxşarlıq təşkil edir. Belə ki, şəkil 7-də qeyd edildiyi kimi, yerli turistlərin əsas hissəsi dost-qohum ziyarəti məqsədilə ölkədaxili səfərlər həyata keçirmişdir (49%). 24% ziyarətçi istirahət məqsədilə, 11% işgüzar, 8% sağlamlıq və yerdə qalan 8% isə alış-veriş, dini və digər məqsədlərlə ölkədaxili səfərlər həyata keçirmişdir.

According to the State Statistics Committee, the number of domestic travellers has increased by 167%, compared to the previous year, and reached 3.4 million. The number of domestic trips increased by 52%. The breakdown of visitors by purpose of visit showed a similar trend to the previous year. According to figure 7, the main purpose of domestic tourists travelled to our country was friends and relatives (49%). This is followed by leisure (24%), business (11%), health (8%), shopping, religious and other purposes (total 8%).

**Şəkil 7: Ölkədaxili səfərlərin məqsədlərə görə bölgüsü, 2021-ci il**
Figure 7: Purpose of visit, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

2021-ci il səfərlərin şəhərlər üzrə bölgüsünə görə ən çox ziyarət edilmiş ilk 3 destinasiya Bakı, Naxçıvan Muxtar Respublikası və Qubadır. Bu destinasiyalardan sonra Qusar, Qəbələ, Xaçmaz, Gəncə, Şəki, Sumqayıt və Abşeron isə növbəti ən çox ziyarət edilmiş şəhərlər siyahısındadır. Bakı bütün daxili səyahətlərin 31%-ni, Naxçıvan, Quba, Qusar və Xaçmaz isə 18%-ni təşkil edir. Gəncə, Şəki, Sumqayıt və Abşeron ölkədaxili edilən səfərlərin 15%-dən azını təşkil edir.

According to the distribution of visits by cities in 2021, the most visited 3 destinations were Baku, Nakhchivan Autonomous Republic and Guba. The list is followed by Gusar, Gabala, Khachmaz, Ganja, Sheki, Sumgayit and Absheron. Baku takes about 31% of total domestic trips, while Nakhchivan, Guba, Gusar and Khachmaz hold 18% of them. Ganja, Sheki, Sumgayit and Absheron account for less than 15% of total domestic trips.

Səfərlərin məqsədlərə görə bölgüsündə Bakı, Xaçmaz, Gəncə və Abşeron istisna olmaqla, digər destinasiyalara səfərlərin demək olar ki, yarıdan çoxu dost-qohum ziyarəti məqsədilə edilmişdir. Yerli turistlər işgüzar məqsədlə əsasən Bakı (26%), Sumqayıt (14%), Abşeron (12%) və Gəncəni (10%) ziyarət etmişdir. 2021-ci ildə Xaçmaz şəhəri 45% olmaqla əsas istirahət məkanı kimi qeydə alınmışdır, halbuki ötən il üçün bu rəqəm 28% olmuşdur. Quba (40%), Qusar (39%) və Şamaxı (38%) isə digər əsas istirahət şəhərlərindən hesab olunur. Sağlamlıq məqsədilə Bakı (16%) və Sumqayıt (16%), alış-veriş məqsədilə isə əsas şəhərlər Gəncə (13%) və Şəmkirdir (8%). Dini və digər məqsədli ziyarətlər ölkədaxili səfərlər üçün elə də maraqlı deyil.

According to the purpose of visits by cities, nearly more than half of the trips have been made for visiting friends and relatives, except Baku, Khachmaz, Ganja and Absheron. Local tourists visited Baku (26%), Sumgayit (14%), Absheron (12%) and Ganja (10%) mainly for business purposes. In 2021, the city of Khachmaz was considered the main leisure destination with 45%, while last year this result was 28%. Guba (40%), Gusar (39%) and Shamakhi (38%) are also most popular cities for domestic tourism. Baku (16%) and Sumgayit (16%) are the main cities for health purposes, while Ganja (13%) and Shamkir (8%) are destinations for shopping purposes. Religious and other travel purposes are not popular enough for domestic trips.

**Şəkil 8: Səfərlərin əsas destinasiyalar üzrə bölgüsü, 2021**

Figure 8: Purpose of visit by main destination cities, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Yerli turistlər tərəfindən təşkil edilən səfərlərin əksəriyyəti orta hesabla 1-3 gün (34-44%) və 4-7 gün (24-33%) təşkil etmişdir. Birgünlük səfərlərin əksəriyyəti Bakı və Abşerona həyata keçirilmişdir (17%). 8-14 günlük səfərlərdə üstünlük verilən şəhərlər Şəmkir, Bərdə və Şəkidir (hər biri 14%). Səyahət müddətinin 15 gün və daha uzun müddətə təşkil etdiyi rayonlar arasında isə Bərdə və Xaçmaz qeyd edilməlidir.

The majority of domestic visitors spent 1-3 days (34-44%) and 4-7 days (24-33%). Baku and Absheron are the most visited cities by same-day trips (17%). The most preferred cities for 8-14-day trips are Shamkir, Barda and Sheki, 14% for each. Barda and Khachmaz are the cities where visitors prefer to stay 15 days and more with 11% of total visitors.

**Şəkil 9: Qalma müddətinin destinasiyalar üzrə bölgüsü, 2021**
Figure 9: Length of stay by destination cities, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Yerləşmə növünə görə turistlərin 51%-i dost və qohum evinə, 34%-i isə şəxsi evə üstünlük verib. 12% və 3% ziyarətçi müvafiq olaraq kirayə ev və hosteldə gecələyiblər. Yerləşmə növünə görə gecələmələr 2020-ci illə oxşarlıq təşkil edir.

Regarding the type of accommodation, 51% of tourists prefer a friend's or relative's home, and 34% of them choose a personal house. Only 12% and 3% of visitors spent the night in rented houses and hostels, respectively. Overnights by accommodation are similar to 2020 findings.

**Şəkil 10: Yerləşmə növünə görə gecələmələr, 2021**
Figure 10: Overnight stays by accommodation type, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Yerli turistlər arasında müvafiq olaraq 26% və 23% olmaqla 46-55 və 36-45 yaşlı ziyarətçilər üstünlük təşkil edib. 26-35 yaşlı səyahətçilər 19%, 17-25 yaşlı səyahətçilər isə 14% təşkil edib. Yaşlı səyahətçilər arasında 56-65 yaşlılar 8%, 65 yaşdan yuxarı yaş qrupu isə 1% olub. 17 yaşdan aşağı turistlər isə yerli turistlərin 9%-ni təşkil edib.

Among domestic tourists, 46-55 and 36-45 years old visitors take the highest portion of total number of travellers, which is 26% and 23%, respectively. Travellers with the age of 26-35 hold 19%, while 17-25 ages hold 14%. Among old travellers, 56-65 ages were 8%, and over 65 years old visitors were 1%. Tourists under the age of 17 accounted for 9% of the total number of local tourists.

**Şəkil 11: Yaş qrupları üzrə, 2021**
Figure 11: Age distribution, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

Ötən ildə olduğu kimi 2021-ci ildə də əsas informasiya vasitəsi kimi internet və qohum-dost tövsiyyəsi üstünlük təşkil edib, müvafiq olaraq 54% və 31%. KİV, bukletlər və sərgilərin isə təsir dairəsi aşağı olub.

Like the previous year, the internet and relative-friend recommendations remained the main source of information in 2021, 54% and 31%, respectively. The influence of the media, booklets and exhibitions was low.

**Şəkil 12: Əsas informasiya vasitələri**
Figure 12: Main information sources




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

2021-ci ildə daxili turizm xərclənməsində əsas elementlər qidalanma, mal və hədiyyələrin alınması və nəqliyyat xidmətləri təşkil edib. Bir günlük ziyarətçilərdə xərclənmənin əsas hissəsini (38%) qidalanma təşkil edib. Nəqliyyat üzrə bu pay 33%, alış-veriş üçün isə 27%-dir. Bir gündən artıq qalan yerli ziyarətçilər isə xərclərin 26%-ni mal və hədiyyə alınmasına, 23%-ni nəqliyyata, 20%-ni qidalanmaya və nəhayət, 18%-ni yerləşməyə sərf edib. Dövlət Statistika Komitəsinə əsasən, daxili turizm xərcləri əvvəlki ilə nisbətən 77% azalaraq 813 milyon AZN-ə enib. Hər bir yerli turist üçün ortalama xərc təqribi 641 AZN təşkil edir.

The main elements in domestic tourism expenditures in 2021 were food, purchase of goods, gifts and transport services. The main part of the expenditure of same-day visitors (38%) was feeding. This share is 33% for transportation and 27% for shopping. The domestic tourists who stayed more than a day spent 26 percent on goods and gifts, 23 percent on transportation, 20 percent on food and finally, 18 percent on accommodation. According to the State Statistical Committee, domestic tourism expenditures decreased by 77% compared to the previous year and amounted to 813 million AZN. The average expenditure of each local tourist is about 641 AZN.

**Şəkil 13: Xərclərin strukturu, 2021**
Figure 13: Expenditure structure, 2021




**Mənbə:** Dövlət Statistika Komitəsi / **Source:** State Statistical Committee

# Abreviaturalar

| | |
|---|---|
| **AZN** | Azərbaycan manatı |
| **BƏƏ** | Birləşmiş Ərəb Əmirlikləri |
| **DMT** | Destinasiya Menecmenti Təşkilatı |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **DSX** | Dövlət Sərhəd Xidməti |
| **DTA** | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

# Abbreviations

| | |
|---|---|
| **AZN** | Azerbaijani manat |
| **DMO** | Destination Management Organisation |
| **GDP** | Gross Domestic Product |
| **SBS** | State Border Service |
| **SSC** | State Statistical Committee |
| **STA** | State Tourism Agency of the Republic of Azerbaijan |
| **TDS** | Tourism Departure Survey |
| **UAE** | United Arab Emirates |
| **UK** | United Kingdom |
| **USD** | United States Dollar |
| **VFR** | Visiting friends and relatives |

# Təriflər

**Fəaliyyət** – Turizm statistikasında fəaliyyət termini, istehlakçı qismində səyahətə hazırlaşma və səyahət zamanı insanların hərəkət və davranışlarına aiddir (IRTS 2008, para 1.2).

**Birləşdirilmiş məlumatlar** – Vahid səviyyəli məlumatların əhalinin bir qrup xüsusiyyətlərinə görə kəmiyyət ölçmələrinə çevrilməsinin nəticəsidir.

**Destinasiya (səyahətin əsas məkanı)** – Destinasiya səfərin qəbul edilməsi üçün əsas olan ziyarət yeri olaraq müəyyənləşdirilir (IRTS 2008, paraqraf 2.31).

**Daxili turizm** – Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətidir.

**Daxili turizm xərcləri** – Ölkə daxilində bir rezidentin turizm xərcləri (IRTS 2008, paraqraf 4.15 (a)).

**Daxili turizm səfəri** – Ölkə sakininin ölkə daxilində yerləşən başlıca səfər obyektinə ziyarətidir (IRTS 2008, paraqraf 2.32).

**Yerli qonaq** – Yaşadığı ölkəni gəzir və onun fəaliyyəti daxili turizmin bir hissəsidir.

**Gəlmə turizmi** – Azərbaycan Respublikasında yaşamayan vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasına edilən səyahətlərdir.

**Gəlmə turizmi üzrə xərcləmələr** – Qeyri-rezidentlərin istinad olunan ölkənin iqtisadiyyatı daxilindəki turizm xərcləridir (IRTS 2008, paraqraf 4.15 (b)).

**Getmə turizmi** – Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahətləridir.

**Getmə turizmi üzrə xərcləmələr** – Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkədə turizm xərcləmələridir.

**Birgünlük ziyarətçi (və ya ekskursiyaçı)** – Səfəri zamanı gecələməyən ziyarətçidir (24 saatadək).

**Turizm xərcləri** – Turizm xərcləri dedikdə, turizm səfərləri üçün və səfər müddətində şəxsi istifadə və ya digərlərinə vermək üçün istehlak mallarının və xidmətlərinin, habelə qiymətli əşyaların alınması üçün ödənilən məbləğ başa düşülür. Burada ziyarətçilərin özlərinin çəkdikləri xərclər, eləcə də digərləri tərəfindən ödənilən və ya geri qaytarılan xərclər əhatə edilir (IRTS 2008, paraqraf 4.2).

**Turist (və ya gecələyən ziyarətçi)** – Səfəri zamanı gecələyən ziyarətçidir.

**Səyahətçi** – Müxtəlif coğrafi məkanlar arasında hər hansı bir məqsəd və istənilən müddət üçün hərəkət edən şəxsdir (IRTS 2008, paraqraf 2.4).

**Səfər** – Səfər dedikdə, bir insanın adi yaşayış yerindən yola düşdüyü və qayıdana qədər etdiyi səyahət nəzərdə tutulur.

**Ziyarətçi** – Adət etdiyi mühitdən kənarda bir ildən az müddətdə ziyarət edilən ölkə və regionun yerli müəssisəsi tərəfindən işlə təminatdan başqa hər hansı digər başlıca məqsəd ilə (işgüzar, istirahət və ya digər şəxsi məqsədlər) əsas destinasiyaya səyahət edən səyahətçidir (IRTS 2008, paraqraf 2.9). Ziyarətçi (daxili, gələn və ya xaricə gedən) gecələyən (səfərə gecələmək daxildirsə) və ya birgünlük ziyarətçi və ya ekskursionist (səfərə gecələmək daxil deyilsə) olmaqla iki hissəyə bölünür (IRTS 2008, paraqraf 2.13).

# Definitions

**Activity/activities** – In tourism statistics, the term 'activities' refers to the actions and behaviours of people in preparation for and during a trip in their capacity as consumers (IRTS 2008, para. 1.2).

**Aggregated data** – The result of transforming unit-level data into quantitative measures for a set of characteristics of a population.

**Destination (main destination of a trip)** – The main destination of a tourist trip is defined as a place visited which is central to the decision to take the trip (IRTS 2008, para. 2.31).

**Domestic tourism** – Domestic tourism comprises the activities of a resident visitor within the country of reference, either as part of a domestic tourism trip or as part of an outbound tourism trip (IRTS 2008, para. 2.39).

**Domestic tourism expenditure** – The tourism expenditure of a resident visitor within the economy of reference (IRTS 2008, para. 4.15 (a)).

**Domestic tourism trip** – A domestic tourism trip is one with a main destination within the country of residence of the visitor (IRTS 2008, para. 2.32).

**Domestic visitor** – As a visitor travels within his or her country of residence, he or she is a domestic visitor and his or her activities are part of domestic tourism.

**Inbound tourism** – Inbound tourism comprises the activities of a non-resident visitor within the country of reference on an inbound tourism trip (IRTS 2008, para. 2.39).

**Inbound tourism expenditure** – Inbound tourism expenditure is the tourism expenditure of a non-resident visitor within the economy of reference (IRTS 2008, para. 4.15 (b)).

**Outbound tourism** – Outbound tourism comprises the activities of a resident visitor outside the country of reference, either as part of an outbound tourism trip or as part of a domestic tourism trip (IRTS 2008, para. 2.39 (c)).

**Outbound tourism expenditure** – The tourism expenditure of a resident visitor outside the economy of reference (IRTS 2008, para. 4.15 (c)).

**Same-day visitor (or excursionist)** – A visitor (domestic, inbound or outbound) is classified as a tourist (or overnight visitor), if his/her trip includes an overnight stay, or as a same-day visitor (or excursionist) otherwise (IRTS 2008, para. 2.13).

**Tourism expenditure** – Tourism expenditure refers to the amount paid for the acquisition of consumption goods and services, as well as valuables, for own use or to give away, for and during tourism trips. It includes expenditures by visitors themselves, as well as expenses that are paid for or reimbursed by others (IRTS 2008, para. 4.2).

**Tourist (or overnight visitor)** – A visitor (domestic, inbound or outbound) is classified as a tourist (or overnight visitor), if his/her trip includes an overnight stay, or as a same-day visitor (or excursionist) otherwise (IRTS 2008, para. 2.13).

**Traveller** – A traveller is someone who moves between different geographical locations for any purpose and any duration (IRTS 2008, para. 2.4).

**Trip** – A trip refers to the travel undertaken by a person from the time of departure from his or her usual residence until he or she returns; it thus refers to a round trip. Trips taken by visitors are tourist trips.

**Visitor** – A visitor is a traveller taking a trip to a main destination outside his or her usual environment, for less than a year, for any main purpose (business, leisure or other personal purpose) other than to be employed by a resident entity in the country or place visited (IRTS 2008, para. 2.9). A visitor (domestic, inbound or outbound) is classified as a tourist (or overnight visitor), if his/her trip includes an overnight stay, or as a same-day visitor (or excursionist) otherwise (IRTS 2008, para. 2.13).

**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**State Tourism Agency of the Republic of Azerbaijan**


*Əlaqədar şəxs:*

**Turizm Siyasəti və Strategiyası Şöbəsinin Statistika və araşdırmalar sektoru**

Nicat Abbaslı
*Sektor müdiri*

*elektron poçt:* nijat.abbasli@tourism.gov.az

*Contact person:*

**Statistics and Research Division of the Tourism Policy and Strategy Department**

Nijat Abbasli
*Head of Division*

*e-mail:* nijat.abbasli@tourism.gov.az



tourismboard.az

info@tourismboard.az
tourismboard.az

azərbaycan

TURİZM BÜROSU

**Broşürü yükləmək üçün QR kodu skan edin**
Scan the QR code to download the brochure

**Ünvan:**
Azərbaycan Turizm Bürosu
Üzeyir Hacıbəyli 134
Bakı AZ1010

**Address:**
Azerbaijan Tourism Board
134, Uzeyir Hajibeyli
Baku, AZ1010, Azerbaijan